*Azərbaycan dili və ədəbiyyat tədrisi*
Xüsusi buraxılış / 2025 May / 119–130
https://doi.org/10.48445/r4255-7065-8764-y

# Heydər Əliyevin mədəniyyət siyasətində dil faktorunun strateji əhəmiyyəti

***Dünya Məmmədli*** [1]

**XÜLASƏ**
*"Heydər Əliyevin mədəniyyət siyasətində dil faktorunun strateji əhəmiyyəti" adlı məqalə Ulu öndərin mədəniyyət siyasətində dilin mühüm rolunu araşdırır. Məqalədə dilin yalnız ünsiyyət vasitəsi deyil, Azərbaycanın milli kimliyini, mədəniyyətini, tarixini qorumaq və inkişaf etdirmək üçün əsas amil olduğu fikri vurğulanır. Heydər Əliyev tərəfindən həyata keçirilən dil siyasəti müstəqil Azərbaycan dövlətinin gücləndirilməsi və mədəni irsinin qorunması istiqamətində mühüm rol oynamışdır. Məqalədə Heydər Əliyevin dil siyasətinin əsas elementləri, o cümlədən dilin qorunması üçün hüquqi bazanın yaradılması, latın qrafikasına keçid və Azərbaycan dilinin beynəlxalq aləmdə təbliği müzakirə olunur. Ulu öndərin idarəçiliyi dövründə dilin təhsil, mədəniyyət və dövlət işlərində tətbiqi, Azərbaycan dilinin həm daxili, həm də beynəlxalq səviyyədə tanıdılmasında rolu faktlarla əsaslandırılmışdır. Onun apardığı siyasət gələcək nəsillərin Azərbaycan dilini qoruyub inkişaf etdirməsi üçün əsaslı zəmin yaratmışdır.*

**AÇAR SÖZLƏR**
*Heydər Əliyev, mədəniyyət siyasəti, dil faktoru, Azərbaycan dili, mədəni irs, dilin qorunması*

**MƏQALƏ TARİXÇƏSİ**
Göndərilib: 08.02.2025
Qəbul edilib: 05.04.2025

[1] Doktorant, AMEA Məhəmməd Füzuli adına Əlyazmalar İnstitutu. Azərbaycan.
https://orcid.org/0000-0003-3879-1437 | dcabbarovam26@gmail.com

Creative Commons Attribution-NonCommercial 4.0 International License (CC BY-NC 4.0)

*Teaching of Azerbaijani Language and Literature*
Special Issue / 2025 May / 119–130
https://doi.org/10.48445/r4255-7065-8764-y

# Strategic Importance of the Language Factor in Heydar Aliyev's Cultural Policy

***Dunya Mammadli*** [1]

**ABSTRACT**
*The article "Strategic Importance of the Language Factor in Heydar Aliyev's Cultural Policy" explores the pivotal role that language played in Heydar Aliyev's cultural policy. It highlights how language, beyond being a tool for communication, was a crucial element in preserving and promoting the national identity, culture, and history of Azerbaijan. Under Heydar Aliyev's leadership, language policy became a cornerstone for strengthening the newly independent state of Azerbaijan and safeguarding its cultural heritage. The article discusses key elements of Heydar Aliyev's language policy, including the legal framework established for language protection, the transition to the Latin alphabet, and efforts to promote the Azerbaijani language internationally. His administration's focus on language in education, culture, and governance significantly contributed to the recognition and protection of Azerbaijani language and culture both domestically and abroad. The strategic importance of language within Heydar Aliyev's cultural policy also facilitated the international promotion of Azerbaijani identity. His initiatives have created a solid foundation for the continued development and global recognition of the Azerbaijani language, ensuring its protection and growth for future generations.*

**KEYWORDS**
*Heydar Aliyev, cultural policy, language factor, Azerbaijani language, cultural heritage, language protection*

**ARTICLE HISTORY**
Received: 08.02.2025
Accepted: 05.04.2025

---

[1] Ph. D. Student, Institute of Manuscripts named after Muhammad Fuzuli of ANAS. Azerbaijan.
https://orcid.org/0000-0003-3879-1437 | dcabbarovam26@gmail.com

 Creative Commons Attribution-NonCommercial 4.0 International License (CC BY-NC 4.0)

*"...Hər bir azərbaycanlı öz milli mənsubiyyətinə görə qürur hissi keçirməlidir və biz azərbaycançılığı – Azərbaycan dilini, mədəniyyətini, milli-mənəvi dəyərlərini, adət-ənənələrini yaşatmalıyıq".*

Heydər Əliyev
Azərbaycan Respublikasının ümummilli lideri

## Giriş

Dil hər bir xalqın milli kimliyinin və mədəni irsinin əsas daşıyıcılarından biri olmaqla yanaşı, onun tarixi inkişaf prosesində də mühüm rol oynayır. Azərbaycan xalqının zəngin mənəvi dəyərlərinin və mədəni irsinin qorunmasında, eləcə də gələcək nəsillərə ötürülməsində dil amili əsas faktordur. Bu baxımdan, ümummilli lider Heydər Əliyevin mədəniyyət siyasətində dilin rolu və strateji əhəmiyyəti müasir dövrdə də öz aktuallığını qoruyur.

Tədqiqat zamanı dövlətçilik siyasətində dil təkcə ünsiyyət vasitəsi deyil, həm də milli mənsubiyyətin, ideoloji dayaqların və mədəni dəyərlərin əsasını təşkil edən amildir. Onun rəhbərliyi ilə Azərbaycan dilinin hüquqi statusunun möhkəmləndirilməsi, dilin inkişafına dair fundamental tədbirlərin həyata keçirilməsi və cəmiyyətin bütün sahələrində atılan addımlar bu siyasətin strateji əhəmiyyətini bir daha təsdiqləyir.

## Metodlar

Məqalədə Heydər Əliyevin mədəniyyət siyasətində dil faktorunun strateji əhəmiyyətini araşdırmaq üçün kompleks tədqiqat metodlarından istifadə edilmişdir. Heydər Əliyevin dil siyasətinin Azərbaycan dövlətçiliyinə, milli kimliyə və mədəniyyətin qorunmasına təsirini təhlil etmək üçün tarixilik, analiz-sintez, müqayisəli təhlil metodlarından istifadə edilmişdir.

Tarixi-analitik metod vasitəsilə Heydər Əliyevin dil siyasəti daha geniş tarixi kontekstdə tədqiq edilmişdir.

Sənədlərin təhlili – 1978 və 1995-ci illərin Konstitusiyaları, 2002-ci ildə qəbul olunan "Dövlət Dili haqqında Qanun", dil siyasəti ilə bağlı fərmanlar və bu kimi hüquqi sənədlərin nəzərdən keçirilməsi.

Məlumat mənbələrinə rəsmi dövlət sənədləri, Heydər Əliyevin çıxışları, akademik tədqiqatlar və dilin inkişafı istiqamətində aparılan islahatlar haqqında hesabatlar daxildir.

## Nəticələr

Bu araşdırmanın nəticələri onu göstərir ki, ümummilli lider Heydər Əliyev Azərbaycan dilinin qorunmasında və təbliğində mühüm rol oynamışdır:

- 1978-ci il Konstitusiyası Azərbaycan dilini dövlət dili kimi təsdiq etdi, 1995-ci il Konstitusiyası isə onun statusunu gücləndirdi. 2002-ci ildə qəbul edilmiş “Azərbaycan Respublikasında Dövlət dili haqqında” qanunda dil siyasəti və onun mühafizə mexanizmləri öz əksini tapmışdır.
- Azərbaycan dili əsas tədris dili kimi təsis edilmiş, linqvistik tədqiqatların və tədris materiallarının hazırlanması üçün əhəmiyyətli səylər göstərmişdir.
- Heydər Əliyevin siyasəti UNESCO beynəlxalq təşkilatı vasitəsilə Azərbaycan dilinin və mədəniyyətinin təbliğini təşviq etmişdir.
- Azərbaycan ədəbi irsinin gələcək nəsillər üçün əlçatanlığını təmin etmək məqsədilə məlumatların arxivləşdirilməsi və mənbələrin elektronlaşdırılması istiqamətində addımlar atılmışdır.

## Müzakirə

Heydər Əliyevin dil siyasəti milli birliyin və mədəni özünəməxsusluğun möhkəmləndirilməsində mühüm rol oynamışdır. O, Azərbaycan dilini dövlət rəmzi kimi vurğulayaraq onun institusional müdafiəsinin əsasını qoymuş və göstərdiyi təşəbbüslər sayəsində dilin qlobal forumlarda tanınmasına nail olmuşdur. Digər postsovet ölkələrlə müqayisədə Ulu öndərin Azərbaycanın dil siyasətinə yanaşması sistemli və perspektivli şəkildə həyata keçirilmişdir.

Heydər Əliyevin mədəniyyət siyasəti Azərbaycan dilini strateji olaraq milli kimliyin və suverenliyin təməl daşı kimi möhkəmləndirdi. Onun qanunvericilik və təhsil sahələrindəki islahatları uzunmüddətli davamlılığı təmin etdi.

**Heydər Əliyevin dil siyasətinin Azərbaycan dövlətçiliyində rolu**

Heydər Əliyevin həyata keçirdiyi dil siyasəti Azərbaycan dövlətçiliyinin möhkəmlənməsində və milli ideologiyanın formalaşmasında mühüm rol oynamışdır. Ulu Öndər dili təkcə ünsiyyət vasitəsi kimi deyil, həm də xalqın tarixi-mədəni irsini qoruyan, milli birliyi təmin edən strateji amil kimi qiymətləndirmişdir. Azərbaycan dilinin inkişafı və dövlət dili statusunun hüquqi cəhətdən möhkəmləndirilməsi onun rəhbərliyi dövründə milli dövlət quruculuğunun prioritet istiqamətlərindən birinə çevrilmişdir.

Heydər Əliyevin dil siyasətinin əsas məqsədlərindən biri Azərbaycan dilinin hüquqi statusunun təsbit olunması idi. O, 1969-cu ildə ilk dəfə hakimiyyətə gəldiyi dövrdən etibarən Azərbaycan dilinin qorunması və inkişafı məsələsinə xüsusi diqqət yetirmiş, 1978-ci ildə qəbul edilən Azərbaycan SSR Konstitusiyasında Azərbaycan dilinin dövlət

dili kimi rəsmiləşdirilməsinə nail olmuşdur (Mirzəbəyli, 2022, s. 5). Həmin il aprelin 2-də IX çağırış Azərbaycan SSR Ali Sovetinin Azərbaycan Sovet Sosialist Respublikası Konstitusiyasının layihəsi və onun ümumxalq müzakirəsinin yekunlarına həsr olunmuş VII sessiyasında məruzə ilə çıxış edən ümummilli lider Heydər Əliyevin təklifi ilə 73-cü maddə aşağıdakı kimi təklif olunmuşdur: *"Azərbaycan Sovet Sosialist Respublikasının dövlət dili Azərbaycan dilidir"*. Bu, Azərbaycan dilinin tarixində, bütövlükdə xalqımızın yaddaşında dərin iz qoyan tarixi təşəbbüs idi (Azərbaycan SSR Konstitusiyasında Azərbaycan dilinin dövlət dili kimi təsbit edilməsi).

Müstəqillik dövründə bu prinsip daha da möhkəmləndirilmiş, 1995-ci ildə ümumxalq referendumu ilə qəbul edilmiş Konstitusiyanın 21-ci maddəsində Azərbaycan Respublikasının dövlət dilinin Azərbaycan dili olduğu təsbit edilmişdir. Həmin maddədə vurğulanır: *"Azərbaycan Respublikasının Dövlət dili Azərbaycan dilidir. Azərbaycan Respublikası Azərbaycan dilinin inkişafını təmin edir"* (Əliyev, 2011).

1995-ci ildə qəbul edilən Konstitusiyada Azərbaycan dili milli dövlətçiliyin əsas simvollarından biri kimi təsbit olundu. Konstitusiyanın qəbuluna qədər dövlət dilinin adının müəyyənləşdirilməsi ilə bağlı aparılan geniş ictimai müzakirələr Azərbaycan dilinin nüfuzunu artırmaqla yanaşı, onun müstəqil dövlət kimi əhəmiyyətini aydın şəkildə ortaya qoydu. Bu müzakirələr sübut etdi ki, təkcə ictimaiyyət deyil, eyni zamanda dilçi alimlər və mütəxəssislər də ana dilimizin birbaşa "türk dili" adlandırılmasına etiraz edirdilər.

Bunun başlıca səbəbi iki müstəqil türk mənşəli dilin eyni adla adlandırılmasının praktiki baxımdan doğru olmaması və reallıqda onları fərqləndirmək üçün ayrıca adların (məsələn, "Azərbaycan türkcəsi" və "Türkiyə türkcəsi") işlədilməsinə ehtiyac duyulmasıdır. Bundan əlavə, "Azərbaycan dili" ifadəsi uzun illər ərzində işlək bir termin kimi formalaşmış və geniş qəbul olunmuşdur. Buna baxmayaraq, bəzi şəxslər dilimizin "türk dili", "azəri-türk dili", "Azərbaycan türkcəsi", "Azərbaycan türk dili" kimi adlandırılmasını təklif edərək bu məsələni xalqın etnik mənsubiyyəti ilə əlaqələndirməyə çalışırdılar.

Heydər Əliyev öz çıxışlarında qeyd edirdi ki, tarixi köklərimizə və keçmişimizə dərin hörmət bəsləmək vacib olsa da, eyni zamanda nəzərə almaq lazımdır ki, XX əsrdə Azərbaycan dili inkişaf edərək formalaşmış və dövlət dili statusuna yüksəlmişdir. Onun fikrincə, artıq təməli olan bir dilin adını dəyişmək nə fəlsəfi, nə də dövlətçilik baxımından məqsədəuyğun deyil.

Müstəqil Azərbaycanın yeni Konstitusiya layihəsinin hazırlanmasına dair 5 noyabr 1995-ci il keçirilən iclasda ümummilli lider Heydər Əliyev dövlət dilinin adı ilə bağlı qəti mövqeyini ortaya qoydu. Həmin müzakirələri izləyən Azərbaycan vətəndaşları onun

çıxışını yüksək qiymətləndirərək, dil məsələsinin dövlətçilik prinsipləri əsasında həll olunmasının vacibliyini daha dərindən dərk etdilər.

Konstitusiyanın qəbulu ərəfəsində dövlət dilinin adı ilə bağlı aparılan geniş ictimai müzakirələr Azərbaycan dilinin nüfuzunun artmasına mühüm töhfə verərək onun müstəqil dövlət üçün əhəmiyyətini bir daha ön plana çıxardı. Ana dilinə dərin bağlılığı ilə seçilən Heydər Əliyev Azərbaycan dilinin qorunması və inkişafı istiqamətində ardıcıl fərmanlar imzalayaraq və mühüm qanunlar qəbul edərək onun mövqeyini daha da möhkəmləndirdi. 1991-ci ildə qəbul edilən latın qrafikalı Azərbaycan əlifbasına keçid prosesi məhz Ulu öndərin təşəbbüsü ilə tamamlandı və milli-mədəni müstəqilliyin güclənməsi istiqamətində mühüm addımlardan biri kimi dəyərləndirildi (Əliyev, 2011).

Azərbaycan dilinin dövlət qurumlarında, idarəçilik sistemində və təhsil müəssisələrində aparıcı rol oynamasını təmin etmək məqsədilə 18 iyun 2001-ci ildə "Dövlət dilinin tətbiqi işinin təkmilləşdirilməsi haqqında" Azərbaycan Respublikası Prezidentinin Fərmanı imzalanmışdır. Bu fərman dövlət idarəçiliyində, qanunvericilik aktlarında və rəsmi sənədlərdə Azərbaycan dilinin istifadəsinin genişləndirilməsini nəzərdə tuturdu (Sadıqova, 2023). Həmin ilin avqust ayının 9-da imzalanan fərmana əsasən, 1 avqust Azərbaycan Respublikasında "Azərbaycan Əlifbası və Azərbaycan Dili Günü" kimi qeyd olundu.

Azərbaycan dili ilə bağlı vacib addımlardan biri də Ulu öndərin 30 sentyabr 2002-ci ildə imzaladığı "Azərbaycan Respublikasının dövlət dili haqqında" qanunudur. Müstəqil Azərbaycan dövlətinin ana dilinə hərtərəfli qayğısının təcəssümünü özündə əks etdirən bu qanunda dövlət dilinin işlənməsi, inkişafı, saflığının qorunması, ədəbi dilin normalarına əməl edilməsi, ölkəmizdə dilçilik elminin nəzəri və tətbiqi sahələrinin inkişafı üçün lazımı şəraitin yaradılması və s. kimi məsələlər də nəzərdə tutulmuşdur (Şükürlü, 2023). Həmçinin bu qanun dünya azərbaycanlılarının Azərbaycan dili ilə bağlı milli-mədəni özünüifadə tələbatlarının ödənilməsi üçün hüquqi zəmin yaradır.

Sənəd ölkə Konstitusiyasına uyğun şəkildə hazırlanaraq, Azərbaycan dilinin dövlət dili kimi hüquqi statusunu tənzimləyir və onun ictimai, elmi və mədəni sahələrdə geniş istifadəsini təmin edir. Heydər Əliyevin ana dilinin gələcəyi ilə bağlı fundamental baxışları və dil siyasəti sahəsində müəyyənləşdirdiyi əsas istiqamətlər bu gün də müasir siyasi yanaşmalar çərçivəsində uğurla davam etdirilir.

Ümummilli lider Heydər Əliyev türkdilli xalqların milli tarixinin, ana dilinin, ədəbiyyatının, mədəniyyətinin, incəsənətinin, adət-ənənələrinin qorunmasını, inkişaf etdirilməsini daim dəstəkləmiş, türkdilli ölkələrin mədəni əməkdaşlığını təmin edən "Türksoy" təşkilatının fəaliyyətinin genişləndirilməsinə və Azərbaycanın bu təşkilat çərçivəsində aparıcı rol oynamasına xüsusi önəm vermişdir.

Hazırda Azərbaycanın türkdilli ölkələrlə mədəni əlaqələrinin inkişafında "Türksoy" təşkilatı əsas platformalardan biri olaraq fəaliyyət göstərir. Bu qurum 1992-ci ilin yaz aylarında İstanbulda keçirilmiş "Türkdilli dövlətlərin mədəniyyət nazirlərinin birinci görüşü" zamanı təsis edilmişdir. Eyni zamanda Novruz bayramının UNESCO-nun qeyri-maddi mədəni irs siyahısına daxil edilməsində də "Türksoy" təşkilatının mühüm rolu olmuşdur.

**Ədəbiyyat, mədəniyyət və incəsənətdə dilin qorunması siyasəti**

Ümummilli lider Heydər Əliyevin dil siyasəti yalnız dövlət idarəçiliyi və təhsil sahələri ilə məhdudlaşmır, ədəbiyyat, mədəniyyət və incəsənət sahələrində də Azərbaycan dilinin qorunması və inkişafı xüsusi önəm daşıyırdı. Dil onun mədəniyyət siyasətində milli kimliyin təbliği və mədəni irsin gələcək nəsillərə ötürülməsi baxımından əsas amillərdən biri olmuşdur. Bu sahələrdə dilin qorunması və inkişafı məqsədilə müxtəlif strateji addımlar atılmışdır.

Ulu öndər Azərbaycan ədəbiyyatını və mədəniyyətini müstəqil dövlətin mədəni siyasətinin əsas dayağı hesab edirdi. Azərbaycan dilinin ədəbiyyat və mədəniyyət sahələrində düzgün istifadəsi, milli xüsusiyyətlərin qorunması və dilin zənginləşdirilməsi məqsədilə Heydər Əliyev bir sıra təşəbbüslər irəli sürmüşdür. Onun Azərbaycanın klassik və müasir ədəbiyyatına, dilin ədəbi normalarının qorunmasına göstərdiyi dəstək və xüsusi diqqət milli mədəniyyətin təbliğinə mühüm töhfə vermişdir.

Azərbaycanda muzey işinin inkişafında da ümummilli lider Heydər Əliyevin misilsiz rolu olmuşdur. Onun muzeylərə göstərdiyi diqqət və qayğısı nəticəsində ölkədə yeni ekspozisiyalar yaradılmış, mövcud sərgilər zənginləşdirilmişdir.

Heydər Əliyevin bu sahədəki fəaliyyətində görkəmli şəxsiyyətlərin xatirəsini əbədiləşdirən muzeylərin təsis edilməsi mühüm yer tuturdu. Onun şəxsi təşəbbüsü ilə Bakı şəhərində Azərbaycan mədəniyyəti, ədəbiyyatı və incəsənətinin tanınmış simalarına həsr olunmuş bir sıra xatirə muzeyləri açılmışdır. Dahi bəstəkar Üzeyir Hacıbəyovun, xalq şairi Səməd Vurğunun, görkəmli dramaturq Cəfər Cabbarlının, yazıçı və ictimai xadim Nəriman Nərimanovun, Azərbaycanda peşəkar vokal sənətinin banisi Bülbülün, məşhur yazıçı və "Molla Nəsrəddin" jurnalının naşiri Cəlil Məmmədquluzadənin, böyük bəstəkar və dirijor Niyazinin, eləcə də dramaturq Hüseyn Cavidin xatirə muzeyləri yaradılmışdır. Bundan əlavə, Tbilisidə görkəmli maarifçi və yazıçı Mirzə Fətəli Axundovun ev-muzeyi təsis edilmişdir (Abbasov, 2011, s. 153–154).

İncəsənətdə, xüsusən də musiqi, teatr və kino sahələrində dilin qorunması və inkişafı məsələsi Heydər Əliyevin mədəniyyət siyasətinin ayrılmaz hissəsi idi. Dövlət tərəfindən incəsənət sahəsində Azərbaycan dilinin istifadəsini təşviq edən tədbirlər məhz bu məqsədlə həyata keçirilmişdir.

Məsələn, Azərbaycan dilində filmlərin, teatr tamaşalarının hazırlanması, həmçinin milli musiqinin və incəsənətin müxtəlif sahələrində dilin təbliğinə xidmət edən layihələrin dəstəklənməsi bu siyasətin əsas istiqamətlərindəndir. Ümummilli liderimiz Heydər Əliyevin "Azərbaycan Kinosu Gününün təsis edilməsi haqqında" 18 dekabr 2000-ci il tarixli Sərəncamına əsasən, hər il avqustun 2-si ölkəmizdə "Azərbaycan Kinosu Günü" kimi qeyd olunur (Azərbaycan Milli Kinosu tariximizin salnaməsidir, 2018, s. 4).

Heydər Əliyev müstəqil Azərbaycan Respublikasının əvəzolunmaz memarıdır. Onun dövlətçilik, iqtisadiyyat, mədəniyyət və dil sahəsində həyata keçirdiyi islahatlar yalnız öz dövrü üçün deyil, həm də müasir dövrdə Azərbaycan Respublikasının inkişafının təməlini qoymuşdur. O, Azərbaycanın beynəlxalq aləmdə tanınması və ölkənin geosiyasi mövqeyinin gücləndirilməsi üçün çoxsaylı diplomatik təşəbbüslər irəli sürmüşdür.

Heydər Əliyevin siyasəti və müstəqilliyin bərpası ilə dilimiz yalnız ölkə daxilində deyil, beynəlxalq arenada da tanınması və təbliği sahəsində mühüm irəliləyişlərə nail olmuşdur. Azərbaycan dilinin dünya miqyasında tanınması, elmi və mədəni əlaqələrin inkişafı, dilin beynəlxalq platformalarda istifadəsi bu sahədəki əsas hədəflərdən biri olmuşdur.

Azərbaycan dilinin və mədəniyyətinin beynəlxalq səviyyədə tanıdılmasında UNESCO ilə əməkdaşlıq mühüm rol oynamışdır. Azərbaycanın ədəbiyyat və mədəniyyət sahələrində həyata keçirdiyi təşəbbüslər, xüsusilə "Azərbaycan ədəbiyyatının dünya mədəniyyətinə töhfəsi" mövzusunda təşkil edilən beynəlxalq simpoziumlar və sərgilər, ana dilimizi beynəlxalq platformalarda təqdim etmişdir. Bununla yanaşı, Azərbaycan dilinin UNESCO tərəfindən qorunması və mədəniyyətlərarası dialoqda önəmli yer tutması məqsədilə müxtəlif beynəlxalq layihələrə dəstək verilmişdir.

Ümummilli lider Heydər Əliyev milli-mənəvi dəyərlərimizə, onların öyrənilməsinə önəm verməklə yanaşı, Azərbaycanın mədəniyyət xəzinəsinin dünya sivilizasiyalarına tanıdılması məsələsinə də xüsusi diqqətlə yanaşmışdır. Məhz müstəqillik illərində dahi Azərbaycan şairi və mütəfəkkiri Füzulinin dövlət başçımızın təşəbbüsü ilə keçirilmiş 500 illik yubileyi əsl poeziya və milli mədəniyyətimizin təntənəsinə, digər tərəfdən isə Azərbaycan dövlətçiliyinin, Azərbaycan müstəqilliyinin bayramına çevrilmişdi. Müxtəlif ölkələrdən, UNESCO-dan bu yubileyə gələn insanlar Füzuli poeziyası vasitəsilə Azərbaycanı tanımış, onun xalqının milli-mənəvi dəyərlərini yüksək qiymətləndirmiş, bu xalqın həqiqətlərini dünyaya çatdırmaq üçün səylərini əsirgəməmişdir (Abbasov, 2011, s. 316).

Əsrlərin və minilliklərin qovuşduğu 2000-ci ildə Azərbaycan Respublikası türkdilli dövlət başçılarını, dünya qorqudşünasların UNESCO-nun iştirakı ilə möhtəşəm "Kitabi-Dədə Qorqud" dastanının 1300 illk yubileyinə dəvət etdi. Uzun müddət təqiblərə məruz

qalmış bu epos, nəhayət ki, Ulu öndərin təşəbbüsü ilə öz layiqli qiymətini aldı. Bu münasibətlə aprelin 9-da Respublika sarayında keçirilmiş təntənəli yubiley mərasimində prezident Heydər Əliyevin nitqi hər bir azərbaycanlıda qürur hissi doğurur: “Biz bu gün böyük iftixar hissi keçiririk. Çünki bizim “Kitabi-Dədə Qorqud” kimi böyük tarixi abidəmiz vardır. Çünki bu gün biz sərbəstlik, azadlıq, müstəqillik və öz tarixi keçmişimizi, öz mənəvi dəyərlərimizi, öz mədəniyyətimizi olduğu kimi təhlil edib xalqımıza, millətimizə və gələcək nəsillərə çatdırmağa qadirik” (Abbasov, 2011).

Azərbaycan dilinin beynəlxalq arenada daha çox tanınması və təbliği istiqamətində nəşriyyat və kitabşünaslıq, eləcə də media və kütləvi informasiya vasitələri sahəsində də mühüm addımlar atılmışdır. Azərbaycan dilində tərcümə edilən əsərlər, beynəlxalq sərgilər və kitab yarmarkaları vasitəsilə ana dilimiz dünya ictimaiyyətinə çatdırılır. Azərbaycan ədəbiyyatının və elminin müxtəlif sahələrində nəşr olunan əsərlər dilimizin beynəlxalq miqyasda tanınmasına xidmət edir.

Akademik və elmi mühitdə də həyata keçirilən dil siyasəti çərçivəsində ölkəmizin aparıcı universitetləri və elm mərkəzləri beynəlxalq konfranslar təşkil edir və ana dilimizdə elmi tədqiqat topluları və elmi jurnallar dərc edirlər. Azərbaycan dilində beynəlxalq elmi jurnalların nəşri və Azərbaycan alimlərinin xarici ölkələrdə keçirilən konfranslarda iştirakı dilin təbliğinə və beynəlxalq səviyyədə tanınmasına dəstək olur.

**Heydər Əliyev irsinin davamı**

Ümummilli lider Heydər Əliyevin layiqli davamçısı prezident İlham Əliyev bu gün Ulu öndərin miras qoyduğu siyasi irsini uğurla davam etdirir. Azərbaycan xalqının milli-mənəvi dəyərlərinin qorunmasında və təbliğində İlham Əliyevin kifayət qədər rolu vardır.

Prezident İlham Əliyev Ulu öndərin Azərbaycan xalqının milli-mənəvi dəyərlərinin qorunub saxlanılması və inkişafı istiqamətində müəyyən etdiyi siyasəti ardıcıl şəkildə həyata keçirir. Onun “Azərbaycan Milli Ensiklopediyasının nəşri haqqında” və “Azərbaycan dilində latın qrafikası ilə kütləvi nəşrlərin həyata keçirilməsi haqqında” sərəncamları (12 yanvar 2004-cü il), Milli Ensiklopediyanın nəşrinə rəhbərliyi şəxsən öz üzərinə götürməsi və bununla bağlı imzaladığı sərəncamlar, alimlərə elmi dərəcələrə görə əlavə ayrılan əməkhaqqı, tələbə, magistrtrant və aspirantların təqaüdlərini dəfələrlə artırması milli-mənəvi və ümumbəşəri dəyərlərə dövlət qayğısının parlaq təzahürləridir.

Heydər Əliyev tərəfindən müəyyənləşdirilən mədəniyyət konsepsiyasının İlham Əliyev tərəfindən uğurla davam etdirilməsi Azərbaycan Respublikasının mədəniyyət siyasətinin mütərəqqi və təminatlı perspektivlərindən xəbər verməkdədir (Abbasov, 2011, s. 323).

Azərbaycan dilinin qorunması, inkişafı və beynəlxalq səviyyədə təbliği Heydər Əliyev Fondunun da əsas prioritetlərindən biridir. Dil siyasətini davam etdirən fond, bu sahədə

müxtəlif layihələr həyata keçirərək ana dilimizin zəngin və tarixi keçmişinin, bu gününün geniş ictimaiyyətə çatdırılmasına mühüm töhfə verməkdədir.

Fondun prezidenti, Azərbaycan Respublikasının Birinci vitse-prezidenti Mehriban Əliyeva ana dilimizin inkişafı və təbliği ilə bağlı bir sıra mühüm təşəbbüslərin müəllifidir. Onun rəhbərliyi ilə fond tərəfindən Azərbaycan dilinin qorunması və gələcək nəsillərə düzgün şəkildə ötürülməsi məqsədilə elmi və mədəni layihələr icra olunmuşdur.

Heydər Əliyev Fondu tərəfindən Azərbaycan dilinin beynəlxalq arenada tanıdılması istiqamətində müxtəlif tədbirlər həyata keçirilmişdir. Bu məqsədlə Azərbaycan mədəniyyətini, tarixini və ədəbiyyatını əks etdirən kitablar müxtəlif dillərə tərcümə edilərək nəşr olunmuş, xarici ölkələrdə Azərbaycan dili ilə bağlı kurslar və mədəni tədbirlər təşkil edilmişdir.

Eyni zamanda fond Azərbaycan dilinin müasir texnologiyalarla inteqrasiyasına da xüsusi diqqət yetirir. Rəqəmsal mühitdə dilin qorunması və inkişafı məqsədilə müxtəlif onlayn platformalar, lüğət bazaları və elektron kitablar hazırlanmışdır. Bu addımlar Azərbaycan dilinin gənc nəsillər arasında daha geniş yayılmasına və istifadəsinin asanlaşdırılmasına töhfə verməkdədir.

Birinci xanım Mehriban Əliyevanın təşəbbüsü ilə Azərbaycan muğamı 2003-cü ildə UNESCO-nun "Bəşəriyyətin şifahi və qeyri-maddi irsinin şah əsərləri" siyahısına, 2008-ci ildə isə təşkilatın "Qeyri-maddi mədəni irs üzrə reprezentativ siyahısı"na daxil edilmişdir. Muğamın beynəlxalq səviyyədə tanıdılması yalnız musiqimizin deyil, eyni zamanda Azərbaycan dilinin dünyada təbliğinə də mühüm töhfə vermişdir.

Muğamın əsas xüsusiyyətlərindən biri onun sözlə, xüsusilə klassik Azərbaycan poeziyası ilə sıx bağlı olmasıdır. Füzuli, Nəsimi, Xətai, Vaqif, Seyid Əzim Şirvani, Səməd Vurğun kimi şairlərin qəzəlləri muğam ifaçılığı vasitəsilə geniş yayılmış və Azərbaycan dilinin poetik ifadə imkanlarını nümayiş etdirmişdir. Qeyd etmək lazımdır ki, muğam festivalları, beynəlxalq müsabiqələr və konsert proqramları dilimizin musiqi ilə vəhdət halında təbliğinə xidmət edir.

Muğamın UNESCO-nun qeyri-maddi mədəni irs siyahısına daxil edilməsi Azərbaycan dilinin də beynəlxalq miqyasda daha geniş tanınmasına, musiqi və ədəbiyyat vasitəsilə dünya səhnəsinə çıxmasına vəsilə oldu. Bu, milli mədəniyyətimizin qorunması və gələcək nəsillərə ötürülməsi baxımından mühüm addımdır (Azərbaycan muğamı, 2008).

Azərbaycan aşıq sənətinin 30 sentyabr 2009-cu ildə UNESCO-nun qeyri-maddi mədəni irs siyahısına daxil edilməsi, Heydər Əliyevin dil siyasətinin mühüm nəticələrindən biri kimi, Azərbaycan dilinin və mədəniyyətinin beynəlxalq miqyasda tanınmasına töhfə vermişdir. Bu hadisə aşıq sənətinin təkcə milli musiqi ənənəsi deyil, həm də Azərbaycan dilinin zənginliyi və ifadə imkanlarının qoruyucusu olduğunu bir daha sübut etmişdir (Heydər Əliyev Fondunun prezidenti Mehriban Əliyevanın səyləri nəticəsində Azərbaycanın aşıq sənəti UNESCO-nun qeyri-maddi mədəni irs siyahısına daxil edilib, 2009).

**Nəticə**

Heydər Əliyevin mədəniyyət siyasətində dil faktoru müstəqil Azərbaycan Respublikasının qurulmasında və milli kimliyin qorunmasında mühüm rol oynamışdır. Onun rəhbərliyi altında həyata keçirilən dil siyasəti milli dövlətçiliyin möhkəmlənməsinə, Azərbaycan mədəniyyətinin və ədəbiyyatının qorunmasına, təbliğinə xidmət etmişdir. Heydər Əliyev dili yalnız kommunikasiya vasitəsi kimi deyil, həm də xalqın mədəniyyətini, tarixini və kimliyini ifadə edən əsas amil kimi dəyərləndirmiş, ona xüsusi diqqət yetirmişdir.

Dil siyasətindəki əsas yanaşmalar Azərbaycan dilinin təhsildə, mədəniyyətdə, dövlət işlərində və beynəlxalq əlaqələrdə geniş tətbiqini təmin etmişdir. Bu siyasət həmçinin dilin inkişafına yönəlmiş hüquqi bazanın yaradılması, latın qrafikasına keçidin təmin edilməsi və dilin beynəlxalq arenada təbliği kimi mühüm tədbirləri özündə əks etdirmişdir.

Heydər Əliyevin mədəniyyət siyasətində dilin strateji əhəmiyyəti yalnız ölkə daxilində deyil, həm də dünya miqyasında Azərbaycanın milli mədəniyyətini tanıtmağa və Azərbaycan dilini beynəlxalq səviyyədə möhkəmləndirməyə şərait yaratmışdır. Ümummilli liderin dil siyasəti həmçinin gələcək nəsillərin milli dəyərlərini qoruyaraq Azərbaycan dilini və mədəniyyətini daha da inkişaf etdirmək üçün əsaslı təməl formalaşdırmışdır.

Bu baxımdan, Heydər Əliyevin mədəniyyət siyasətində dil faktoru Azərbaycan dövlətçiliyinin, milli kimliyin və mədəni irsin qorunmasının əsas amillərindən biri olaraq qalır.

**Ədəbiyyat**

1. Abbasov, N. (2011). *Mədəniyyət siyasəti və mədəni irs* (kulturoloji təhlil).
2. *Azərbaycan Milli Kinosu tariximizin salnaməsidir*. (2018). F. Köçərli adına Respublika Uşaq Kitabxanası.
3. *Azərbaycan SSR Konstitusiyasında Azərbaycan dilinin dövlət dili kimi təsbit edilməsi* (Tarixdən səhifələr). Eres.presslib. https://eres.preslib.az/site/historical/page/az/wrzhedn
4. *Azərbaycan muğamı.* (2008). https://unesco.az/az/articles/intangible_cultural_heritage/azerbaijani-mugham
5. *Heydər Əliyev və müstəqil Azərbaycanın ilk Konstitusiyası.* (2011).
6. Xudiyev, N. (1997). *Heydər Əliyev və Azərbaycan dili.*
7. Mirzəbəyli, İ. (2022, 24 aprel). Azərbaycan dilinin dövlət dili kimi qəbul edilməsindən 44 il keçir. *Xalq qəzeti*.
8. Rəcəbli, R. (1999). *Azərbaycan Respublikası Konstitusiyasının baş memarı.*
9. Sadıqlı, A. (2011). *Ümummilli lider Heydər Əliyev və Azərbaycan dili.*
10. Sadıqova, S. (2023, 20 fevral). *Heydər Əliyev və dövlət dilinin inkişafı.* Science.az. https://science.gov.az/az/news/open/24034
11. Seyidov, Ə. (2009). *Heydər Əliyev və Azərbaycan Respublikasının Konstitusiyası.*
12. Şükürlü, T. (2023). Heydər Əliyevin böyük dil siyasəti. *Xalq qəzeti*. https://www.xalqqazeti.az/az/siyaset/153416-heyder-eliyevin-boyuk-dil-siyaseti
13. *Heydər Əliyev Fondunun prezidenti Mehriban Əliyevanın səyləri nəticəsində Azərbaycanın aşıq sənəti UNESCO-nun qeyri-maddi mədəni irs siyahısına daxil edilib.* (2009, 30 sentyabr). https://heydar-aliyev-foundation.org/az/content/view/59/1389/Heyd%C9%99r-%C6%8Fliyev-Fondunun-prezidenti-Mehriban-%C6%8Fliyevan%C4%B1n-s%C9%99yl%C9%99ri-n%C9%99tic%C9%99sind%C9%99-Az%C9%99rbaycan%C4%B1n-a%C5%9F%C4%B1q-s%C9%99n%C9%99ti-YUNESKO-nun-Qeyri-maddi-m%C9%99d%C9%99ni-irs-siyah%C4%B1s%C4%B1na-daxil-edilib